**2013-cü il martın 11-də Zaqreb şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Xorvatiya Respublikası Hökuməti arasında ətraf mühit və təbiətin mühafizəsi sahəsində əməkdaşlığa dair Saziş"in təsdiq edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2013-cü il martın 11-də Zaqreb şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Xorvatiya Respublikası Hökuməti arasında ətraf mühit və təbiətin mühafizəsi sahəsində əməkdaşlığa dair Saziş" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi bu Fərmanın 1-ci hissəsində göstərilən Sazişin müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi həmin Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Xorvatiya Respublikası Hökumətini xəbərdar etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 3 may 2013-cü il
№ 881

**Azərbaycan Respublikası Hökuməti və Xorvatiya Respublikası Hökuməti arasında ətraf mühit və təbiətin mühafizəsi sahəsində əməkdaşlığa dair**

## SAZİŞ

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Hökuməti və Xorvatiya Respublikası Hökuməti,

iki ölkənin xalqları arasında dostluq münasibətlərinin gücləndirilməsi və ətraf mühitin mühafizəsi sahəsində əməkdaşlığın inkişaf etdirilməsi arzusunu ifadə edərək,

iki ölkənin qoşulduğu beynəlxalq sazişlərdən irəli gələn öhdəliklərin yerinə yetirilməsi məqsədilə ətraf mühitin mühafizəsi sahəsində ikitərəfli əməkdaşlığın gücləndirilməsinin əhəmiyyətini qeyd edərək,

aşağıdakılar barədə razılığa gəldilər:

### Maddə 1

Tərəflər hər iki ölkənin maraqlarına uyğun olaraq, ətraf mühitin vəziyyətinin yaxşılaşdırılması məqsədilə ətraf mühitin mühafizəsi və davamlı inkişaf sahəsində əməkdaşlığı inkişaf etdirir və genişləndirir.

Ətraf mühitin çirklənməsinin qarşısının alınması və ətraf mühitin mühafizəsi sahəsində qarşılıqlı əməkdaşlığın gücləndirilməsi müvafiq proqram və layihələr vasitəsilə həyata keçirilir.

**Maddə 2**

Tərəflər aşağıdakı sahələrdə əməkdaşlıq edirlər:

- qorunan ərazilərin idarə edilməsi;
- biomüxtəlifliyin qorunması;
- ətraf mühitə təsirin qiymətləndirilməsi;
- ətraf mühitin çirklənməsinə nəzarət və qarşısının alınması;
- tullantıların idarə edilməsi;
- iqlim dəyişikliyi;
- meşələrin idarə edilməsi;
- torpağın mühafizəsi;
- Tərəflər üçün ümumi maraq kəsb edən digər sahələr.

**Maddə 3**

Tərəflər arasında bu Sazişin 2-ci maddəsində göstərilən sahələr üzrə əməkdaşlıq aşağıdakı formada həyata keçirilə bilər:

– birgə elmi-texniki proqramların və müasir texnologiyaların hazırlanması;

– əməkdaşlıq layihələrinin işlənib hazırlanması;

– tədqiqat və inkişaf fəaliyyətləri və yeni ekoloji idarəçilik təcrübələri üzrə elmi-texniki məlumatların və sənədlərin mübadiləsi;

– ekspertlərin, alimlərin və mütəxəssislərin mübadiləsi;

– elmi konfransların, simpoziumların, seminarların və digər görüşlərin təşkili;

– Tərəflərin zəruri hesab etdikləri hər hansı digər əməkdaşlıq formaları.

**Maddə 4**

Tərəflər ətraf mühitin mühafizəsi sahəsində çalışan hökumət və qeyri-hökumət təşkilatlarının nümayəndələri arasında əməkdaşlığın inkişaf etdirilməsini təşviq edirlər.

**Maddə 5**

Azərbaycan Respublikasının və Xorvatiya Respublikasının ətraf mühitin və təbiətin mühafizəsi sahəsi üzrə məsul nazirlikləri bu Sazişin həyata keçirilməsi üzrə Tərəflərin səlahiyyətli orqanlarıdır.

**Maddə 6**

Bu Sazişin qüvvəyə minməsindən sonra hər bir Tərəf bu Saziş çərçivəsində əməkdaşlıq fəaliyyətlərinin idarə edilməsinə məsul olan əlaqələndiricisini təyin edir. Tərəflər bir-birilərinə diplomatik kanallar vasitəsilə təyin olunan əlaqələndiriciləri barədə məlumat verirlər.

Təyin olunmuş əlaqələndiricilər ilə bağlı dəyişikliklər barədə Tərəflər bir-birilərinə diplomatik kanallar vasitəsilə məlumat verirlər.

Tərəflərin əlaqələndiriciləri bu Sazişin 2-ci maddəsində göstərilən əməkdaşlıq sahələri üzrə konkret fəaliyyətləri ehtiva edən illik işçi Proqramlar hazırlayırlar.

Qarşılıqlı razılıq əsasında əlaqələndiricilər bu Saziş çərçivəsində fəaliyyətləri müzakirə etmək üçün görüşə və ya ətraf mühitin mühafizəsi sahəsində əməkdaşlığa dair digər məsələləri nəzərdən keçirə bilərlər. Görüşün vaxtı və yeri qarşılıqlı razılıq əsasında diplomatik kanallar vasitəsilə müəyyən edilir.

**Maddə 7**

Bu Sazişin təfsiri və ya tətbiqi ilə bağlı yaranan fikir ayrılıqları Tərəflər arasında danışıqlar və məsləhətləşmələr yolu ilə həll edilir.

**Maddə 8**

Bu Sazişin müddəaları Tərəflərin qoşulduqları beynəlxalq müqavilələrdən irəli gələn hüquq və öhdəliklərinə təsir etmir.

**Maddə 9**

Tərəflərin qarşılıqlı razılığı ilə bu Sazişə onun ayrılmaz tərkib hissəsi olan və 10-cu maddəsində müəyyən olunan qaydada qüvvəyə minən ayrıca protokollar formasında rəsmiləşdirilən əlavə və dəyişikliklər edilə bilər.

**Maddə 10**

Bu Saziş, onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Tərəflərin sonuncu yazılı bildirişinin diplomatik kanallar vasitəsilə alındığı tarixdən qüvvəyə minir.

Bu Saziş 5 (beş) il müddətinə bağlanılır və Tərəflərdən biri ən azı 6 (altı) ay əvvəlcədən onu ləğv etmək niyyəti barədə yazılı şəkildə diplomatik kanallar vasitəsilə digər Tərəfə bildiriş verməzsə, onun qüvvəsi avtomatik olaraq növbəti 5 (beş) illik müddətlərə uzadılır.

Bu Sazişin ləğv edilməsi onun ləğvindən öncə bu Saziş çərçivəsində razılaşdırılmış və həyata keçirilən fəaliyyətlərin etibarlılığına təsir etmir.

Bu Saziş Zaqreb şəhərində, 11 mart 2013-cü il tarixində hər biri Azərbaycan, xorvat və ingilis dillərində olmaqla iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər

bərabər autentikdir. Təfsir zamanı fikir ayrılığı yarandığı təqdirdə ingilis dilindəki mətndən istifadə ediləcəkdir.

| | |
|---|---|
| **Azərbaycan Respublikası Hökuməti adından** | **Xorvatiya Respublikası Hökuməti adından** |
| *(imza)* | *(imza)* |